*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 134-138* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.134*

# 1990-cı illər Azərbaycan şeiri – yeni ictimai-siyasi mühitin poeziyaya təsiri

**Şəmsurə İsmayılova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.

**Annotasiya.** Məqalədə 1990-cı illərin – ölkədəki yeni ictimai-siyasi mühitin poeziyaya təsiri məsələləri araşdırılır. Qlobal hadisə və proseslərin çağdaş şeirə göstərdiyi təsir, bədii mətnin cəmiyyət, tarixi proseslər, ictimai şüurda baş verən təbəddülatları əks etdirməsi kimi məqamlar tədqiq edilir. Dünyada və ölkədə baş verən hadisələrin Azərbaycan şeirinə ideya, mövzu, problematika, məzmun cəhətdən bir sıra yeniliklər gətirməsi əsas nüanslar kimi önə çəkilir.
Getdikcə poeziyada milli varlığın qorunması və təsdiqi uğrunda döyüşlərin inikası müşahidə olunmağa başladı. Buna baxmayaraq, şeirdə artıq optimist axının kəskin surətdə zəiflədiyini, pessimist poetik əhvali-ruhiyyənin müqayisəedilməz dərəcədə gücləndiyini deyə bilərik. Demək olar ki, bütün şairlərin ictimai-estetik mövqeyindəki ciddi yenilənmə qabarıq surətdə nəzərə çarpırdı.
**Açar sözlər:** milli düşüncə, keçid dövrü, azadlıq, harmoniya, deqradasiya, Qarabağ, müharibə

**Məqalə tarixçəsi:** göndərilib – 16.01.2023; qəbul edilib – 30.01.2023

# Azerbaijani poetry in the 1990s - the influence of the new socio-political environment in poetry

**Shamsura Ismayilova**
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan

**Abstract:** The article analyzes the issue of the impact on poetry of the new socio-political environment of the 1990s in the republic. The influence of global events and processes on modern poetry, the reflection of ongoing conflicts in society, historical processes, and public consciousness are explored. The main nuances of the events happening in the world and the republic, which brought new ideas, themes and content to Azerbaijani poetry, are highlighted.
Gradually, poetry reflects the struggle for the preservation and establishment of the national spirit. Despite this, one can speak of weakening of the optimistic stream in poetry, an intensification of the pessimistic mood. Serious innovations can be clearly observed in the socio-aesthetic position of all poets.
**Keywords**: national thinking, transitional period, freedom, harmony, degradation, Karabakh, war

**Article history:** received – 16.01.2023; accepted − 30.01.2023

## Giriş / *Introduction*

1990-cı illər poeziyası özündə yalnız milli ruhun, milli düşüncənin çətinliklərlə müşayiət olunan dövrünü ehtiva etəmir. Bu daha çox dünya məkanında gedən bir sıra xaotik, qarışıq proseslərin gedişatından da zəmin alır. Təbiidir. Biz dünyanın bir parçasıyıqsa, onun istənilən bir

yerində baş verən dəyişiklik mütləq mənada öz təsirini göstərmiş olacaqdır. XX əsrin 90-cı illəri də bu baxımdan əlahiddə olmadı. Yetmiş il hökm sürən sovet imperiyasının qürubu, addım-addım öz sonunu gətirməsi, nəhayət, 80-ci illərdə acı bir məğlubiyyətlə yekunlaşması sənətə, ədəbiyyata da müstəsna təsirini göstərdi. Axı yetmiş ilə yaxın zaman kəsimində əksər məqamlarda dövrün hakim ideologiyasına adekvat olaraq pərvəriş tapan, ilk vaxtlarda hətta onun “vintciyi”, “təkərciyi” statusunda əsərlər meydana qoyan ədəbiyyat öz ideallarının ölməzliyinə az da olsa inanmışdı. Belə çıxırdı ki, hər şey puç və əfsanə imiş?!... Hər halda inanılan və etiqad ünvanına çevrilən sovet vətəndaşı modeli qürub etmiş, əvəzində çaşqınlıq içində olan insan gəlmişdi ədəbiyyata. Söhbət əlbəttə ki, 1980-ci llərin sonlarının gətirdiyi çaşqaınlıqdan gedir. Bütün dünyanı saran bu çaşğınlığın adı xalqların müstəqilliyini qazanması naminə meydana atılma səbəbi ilə bağlı idisə, digər amillər bu istəklə eyni sırada qabaran proseslərlə əlaqədar idi. Polşada, Çexoslovakiyada, Macarıstanda demokratiya istəyi ilə təşkil olunan mitinqlər, İkinci Dünya Müharibəsindən sonra kapitalist rejiminin hökm sürdüyü AFR ilə kommunist ADR-in birləşməsi, Yuqoslaviyanın süqutu və s.

### Əsas hissə / *Main part*

SSRİ-nin öz sərhədləri daxilində də vəziyyət qarışıq və mürəkkəb idi. Qarabağ iddiası ilə ermənilərin alovlandırdıqları yeni münaqişə dalğası, hər gün Qarabağla bağlı xoş olmayan xəbərlərlə üz-üzə qalmaq, paytaxtda çalxalanma rüşeymlərinin baş qaldırması bəlli edirdi ki, Azərbaycan tezliklə milli münaqişənin mərkəzinə çevrilə bilər. Belə də oldu. 1988-ci ilin 20 fevralında Dağlıq Qarabağın Vilayət Şurası bu regionun Azərbaycandan Ermənistana verilməsinə səs verdi, 1988-ci il martın 1-də sovet qoşunu Sumqayıta, 1988-ci il iyunun 23-də isə 5 ay davam edən milli münaqişənin dayandırılması üçün Ermənistana, Azərbaycana – Dağlıq Qarabağa yeridildi. Az zaman kəsimində müxtəlif respublikalarda yaranan narazılıqların nəticəsi kimi xalq cəbhələri formalaşdı, bəzi ölkələrdə suverenlik elan edildi. 1990-cı il, 11 mart Litva, 4 may Latviya, 23 iyun Moldova, 12 iyun RSFSR, 16 iyul Ukrayna, 1991-in 31 mart Gürcüstan, 18 oktyabr Tatarıstan, 20 avqust Estoniya öz suverenliyini elan etdi. Daha sonra 1989-cu ildə Fərqanədə ahısqa türklərinə qarşı törədilən cinayətlər və onların küll halında köçürülməsi, 1990-cı ilin iyun ayında Qırğızıstanda qırğız-özbək qarşıdurmasının yaranması, Krımda Krım tatarları ilə ruslar arasındakı qarşıdurmalar, Moldovada Dnestryanı Moldova Respublikası məsələsinin ortaya atılması, Cənubi Osetiya və Abxaziya arasında, Şimali Osetiyada, Çeçenistanda müstəqillik və torpaq uğrunda aparılan mübarizələr – hər biri yeni dünya düzəninin gəlişini hazırlayırdı. Dünyanın dörd bir tərəfində dalğalanan milli-etnik münasibətlər, ərazi iddiaları, milli azadlıq istəyi və onun uğruna aparılan savaşlar, milli hərəkatlar qlobal xarakterli proseslərin xarakterik xüsusiyyətləri idi. Ona görə baş verənlər bir-birinə təsirsiz qalmadan ötüşmürdü. Dünyada, SSRİ məkanında, lokal olaraq, ölkədə baş verənlər sanki çalxalanan yer kürəsindən öz “nəsibini” almaq gerçəkliyinin göstəricisi idi. Azərbaycanın bu sırada qazandıqları da oldu, itirdikləri də. 1980-ci illərin sonlarında Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsi, Dağlıq Qarabağla bağlı ərazi iddialarının qaldırılması, Ermənistan Ali Sovetinin Dağlıq Qarabağın Ermənistan torpaqlarına birləşdirilməsi haqqında verdiyi qərar, Bakıda, Sumqayıtda, Qarabağ ərazisində baş verən qarşıdurmalar, 20 Yanvar qətliamı və s. hər biri insanlarda qəribə bir ümidsizlik, çaşqınlıq ab-havası doğursa da, haqsızlığın, sarsıntının doğurduğu mübarizə ruhu ümumxalq miqyasında milli oyanış əzmini gətirmiş oldu. Nəticədə 1991-ci il, oktyabrın 18-də respublika Ali Sovetinin növbədənkənar sessiyasında Azərbaycanın dövlət müstəqilliyinin elan edildi. 1990-cı illərin mənzərəsini xarakterizə edən yeganə ürəkaçan fakt yalnız bundan ibarətdir, desək, yanılmarıq. Ardınca gələn isə ancaq fəlakətlər sırasıdır. Xocalı soyqırımı, bir-birinin ardınca yaşanılan torpaq itkiləri, qətllər, terrorlar, özbaşnalıqlar, üsyan, milli-siyasi proseslərdən zəmin alan Gəncə hadisəsi və onun yaratdığı vətəndaş müharibəsi təhlükəsi, qaçqınlıq əzabı, şəhid xəbərlərinin yaşatdığı acılar, Şuşanın, Ağdamın işğalı və bütün baş verən haqsızlıqlara dünya birliyində etina edilməməsi, susqunluq və laqeyd münasibəti. Bütün baş verən hadisələr ədəbiyyata, poeziyaya öz

təsirini göstərir, üsyan, haray, ağrı şəklində üzə çıxırdı. Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanlı, Cabir Novruz, Zəlimxan Yaqub, Musa Yaqub, Məmməd İsmayıl, Akif Səməd, Fikrət Sadıq, Ramiz Qusarçaylı, Füruzə Məmmədli və başqa bu illərdə yazdığı şeirlərdə bu dövrdə baş verən bütün tarixi-siyasi proseslərin inikasını görə bilərik. Poeziya çevik və operativ davranmağa çalışır, hadisələrin axarı, hərəkət trayektoriyasına adekvat şəkildə zamanın obrazını özünün poetik təcəssüm predmetinə çevirməyə çalışırdı. Bu illərin əksər şeirlərinin intonasiyası kəskin, ironik modus güclü idi, daha çox qəzəb, daha çox üsyan, xalqın təklənməyindən, məmur özbaşınalığından şikayət və başsız qalmağın fəci durumu meydanda olan əksər şeir nümunələrində yer alırdı: “Mən bilirəm: geriyə yol yoxdur atam! /Öncül oğul dönüb geri baxmır, atam!” (M.Araz); “Əhrimənlər yuvasını darmadağın edəcəksən, /Qalxıb sabah Aya, Marsa, ulduzlara yetəcəksən,/Altı milyard insanlığam, qarı düşmən, sənsə təksən, /Zəhər saçan bir əfisən, tor quran bir hörümçəksən.” (X.R.Ulutürk); “Nə qədər ki, qisası yağıdan almamışıq, /Düşmənin qollarını yanına salmamışıq, /Haqqımızı qazanıb qələbə çalmamışıq, /Eşqim, ruhum, mənliyim hərəsi bir yaraqdır! /Bu da bir cür imtahan, bu da bir cür sınaqdı! /Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!!!” (Z.Yaqub); “Qalx, düşmən əlində vətən çırpınır, /Qayaya çırpılır, daşa çırpılır,/Qalx, qovaq göylərdən bu qara yeli. /İrəli, irəli, ancaq irəli!” (F.Mehdi); yaxud “Geysin döyüş paltarını Alov saçan dağ-daşımız, /Ağlamayın, məlhəm deyil yaramıza göz yaşımız!” (H.Kürdoğlu).

Daha çox qisas yanğısı, emosional ritorika, sınmamaq, düşməndən öc almağa çağırış notları bu illərin poeziya nümunələrində qabarıqlığı ilə seçilir. Şeirlərdə millətə müraciət də vardı: “İçində yan, ağı deyib, ağlama/ ağlamağın yeri deyil, ağlama”; “yox, ağlama, ana millət, ağlama/qorxuram ki, sına millət, ağlama” (Məmməd Araz), döyüşçüyə müraciət də: “Əcdadımız yatan bu dağ sənindir,/Viranə görünən yaylaq sənindir, /Odu söndürülən ocaq sənindir,/Qaçma bala, qaçma, torpaq sənindir!!!” (H.Kürdoğlu). Gah vicdan ittiham olunurdu: “Müsibətlər, məşəqqətlər/Edir yaman tüğyan bu gün! /Yatan vicdan,/Oyan vicdan! /Sən vətənin keşiyində dayan, vicdan.” (N.Xəzri), gah da şair “mən”i: “İşıqlısız, Dəlidağsız, Kəlbəcərsiz nə vətən, /Qırxqız hanı, Turşay hanı, Ağbulaqsız nə vətən, /Qarabağsız ah çəkirdik, Qarabağsız nə vətən, /O gözəllik səltənəti tapdalanırsa, /Neynirik bu canı biz?!” (H.Kürdoğlu); “Cırtdan boyda Çeçenistan /Dəvə boyda Rusiyaya dərs verəli/Onu şöhrət məqamından endirəli /Mən özümü necə varsa, /Elə görüb utanıram./İndi çeçen qeyrətindən/Dərs götürüb utanıram” (B.Vahabzadə).

Allaha üz tutulur, baş verənlərin hesabı ondan sorulmaqla yanaşı, bəşər faciələri qarşısında acız qalan insanlığın son ümid yeri kimi həm də Tanrı obrazı önə keçirdi. Sanki XX əsrin sonunda yaşananların aqibəti Tanrı cəzası kimi mənalandırılır, müharibələr, qanlı-qadalı prosesləri ondan uzaq düşüb tamaha, dünya malına hərisliyə boyun əyməklə əlaqələndirilirdi. Fikrət Qoca yazırdı: “Vaxt varikən yığışın /qayıdın həddinizə, /öz sərhəddinizə/öz səddinizə sığışın. /Tamahınızdan qaçın/Gözlərinizi geniş açın”.

Məhz bu davamlı iztirabların və mənəvi çöküşün təzyiqi altında Azərbaycan şeirindən müsbət emosiyalar, şən və qayğısız yaşantılar sürətlə yoxa çıxmağa başladı. Hətta müstəqillik əldə olunduqdan sonra belə onun sevinci və nəşəsini şairlərin lirik qəhrəmanları artıq qoruyub saxlamaq iqtidarında deyildi. Poeziyanın şən və şux lirik “mən”i öz yerini iztirab çəkən, tərəddüdə qapılan, çaşqın, depressiv duruma düşən şair “mən”inə verdi. Şairə Füruzə Məmmədli yazırdı ki:

*Ya Rəb, necə oldu bəs,*
*O şeirli günlərim?*
*Sözdü, səsdi, ritmdi*
*O xeyirli günlərim.*

*Kimə üz tutub getdi?*
*Hara iz tutub getdi?*
*Sözdən söz tutub getdi*
*O sehirli günlərim.* [2, s.343]

Getdikcə poeziyada milli varlığın qorunması və təsdiqi uğrunda döyüşlərin inikası müşahidə olunmağa başladı. Buna baxmayaraq, şeirdə artıq optimist axının kəskin surətdə zəiflədiyini, pessimist poetik əhvali-ruhiyyənin müqayisəedilməz dərəcədə gücləndiyini deyə bilərik. Demək olar ki, bütün şairlərin ictimai-estetik mövqeyindəki ciddi yenilənmə qabarıq surətdə nəzərə çarpırdı. Bu yenilənmənin ideya-estetik məzmununu həmin illərdə Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Məmməd İsmayıl, İsa İsmayılzadə, Şahmar Əkbərzadə, Eldar Baxış, Füruzə Məmmədli və digərlərinin yaradıcılığı aydın təcəssüm etdirir. Bu şairlərin şeirlərində boy göstərməyə başlayan özünəməxsus bir estetik keyfiyyət – düşmənə təslim olmamaq, tarixdən dərs götürmək, milli duyğuları parlaq şəkildə ifadə etmək idi. Onların əsərlərindəki doğma vətənini və millətini erməni-rus, daşnak-bolşevik işğalçılarından xilas etməyə bütün varlığı ilə can atan lirik "mən" öz səsini dünyanın ən böyük və "ədalətli" ünvanlarına çatdırmaq niyyətində görünür. Vətən haraylı və döyüşkən ruhlu şeirlərindəki özünəməxsus döyüşkən avazı ötən əsrin əvvəllərindəki Əhməd Cavad və Almaz İldırımın, həmin əsrin ortaları və sonlarındakı Balaş Azəroğlunun, Söhrab Tahirin, Mədinə Gülgünün və başqalarının poetik hayqırışları ilə müqayisə etmək olar. Yaralı vətənə sevgi, yad əllərdə mənliyi tapdanan millətin əzəmətinə inam, ruhsal bütövlüyü qorumaq ehtirası – 1990-cı illər poeziyasından öz ictimai-estetik kredosuna görə artıq bu düşüncələrlə silahlanan fərqli bir poetik şəxsiyyət boy verirdi:

*... Bakının işığını*
*Qocasını, uşağını*
*Güllələdilər, güllələdilər...*
*Nəvəmin nəvəsi, bunu bil!*
*Bunu bil, bu yurdun daşı, ağacı*
*Yağı olsan öz-özünə,*
*Yer üzü sənə düşmən!*
*Bil və heç vaxt unutma!* [3, s.13]

Ələmdar Quluzadə "Qarabağ oyunu" kitabında ilk didərginlərin faciəsini Qarabağ oyununun bir gedişi kimi də səciyyələndirir. Müharibənin özülünü, bütün sonrakı faciələrin başlanğıcı olan, ən ağrılı, mənəvi və əxlaqi gerçəkliyi əks etdirən didərginliyi öz mətnində xalqın faciəsi səviyyəsində ümumiləşdirən şair həm də bu müsibətləri yana-yana yaşamış, dilləndirə bildiyi sızıltılarla ifadə etmişdir. Qədim tarixi məskənlərimizin, ulu babalarımızın oğuz ellərinin yaşadığı torpaqların, Dədə Qorqudun ayaq basdığı müqəddəs yerlərin türklərdən təmizlənməsini türkün böyük faciəsi kimi səciyyələndirən şair Qarabağın üzərində dolanan tufanın həyəcanını yaşayır:

*Qarabağ mahalı öz yuxusundan*
*Ayılıb qalxıbdır aranlı, dağlı,*
*Qəzəblər sıyrılıb çıxaraq qından*
*Ədalət axtarır əliçıraqlı.* [4, s.23]

**Nəticə / *Conclusion***

Göründüyü kimi, müstəqillik dövründə dünyada və ölkədə baş verən qlobal hadisə və proseslər nəticəsində Azərbaycan şeirinə ideya, mövzu, problematika, məzmun cəhətdən bir sıra yeniliklərin gəldiyini deyə bilərik. Azadlıq, Tanrı, ölüm, müharibə, şəhidlik, qaçqınlıq kimi mövzular şeirin əsas bədii təcəssüm predmetinə çevrildi. 1993-cü il isə ölkədə ictimai-siyasi hadisələrin dönüş nöqtəsi kimi dəyərləndirilməlidir. Ədəbiyyatşünas alim Elnarə Akimova yazır "1993-cü ilə qədər poeziyada hakim olan ovqatla 1993-cü ildən sonrakı ovqat arasında kəskin fərq var. Bu ovqat dəyişimi poeziyanın müraciət etdiyi mövzularda yox, onlara münasibətdə təzahür etmişdir. 1990-cı illərin ortalarına qədər poeziya daha çox çılğın, əsəbi notlar üzərində gəzişir, pa-

fos, çağırış, üsyan ruhu daha öndə qərarlaşırdı. 1990-cı illərin ortalarından başlayaraq poeziyada daha təmkinli şair ədası, loyal yanaşma güclənir. Bu, Heydər Əliyevin sayəsində getdikcə səngiyən müharibə alovunun, aradan qalxan siyasi hərc-mərcliyin nəticəsi idi ki, bədii fikirdə də proseslərə daha üstün baxışı şərtləndirmişdir" [1, s.90-91]

Hakimiyyət dəyişikliyi, Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi, müharibədə atəşkəsə nail olunması, hadisələrin nisbətən dinc mərhələyə adlayaraq stabilləşməyə doğru inkişafı bu ovqatın paralel olaraq poeziyaya da adlamasına və poeziya nümunələrində əyani şəkildə əksini tapmasına səbəb oldu.

**Ədəbiyyat / *References***


1. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı: Elm və təhsil, 2018
2. Firuzə Məmmədli. Seçilmiş əsərləri. I cild. Bakı: Yurd, 2002
3. Kəramət. Dünyadan keçib gəlirəm. O gecə. Bakı: Gənclik, 1990
4. Quluzadə, Ə. Qarabağ oyunu, Bakı: Azərbaycan, 1993


## Азербайджанская поэзия 1990-х годов – влияние в поэзии новой общественно-политической среды


**Шамсура Исмаилова**
Институт литературы имени Низами Гянджеви НАНА



**Резюме.** В статье анализируется вопрос влияния на поэзию новой общественно-политической среды 1990-х годов в республике. Исследуются моменты влияния глобальных событий и процессов на современную поэзию, отражение происходящих конфликтов в обществе, исторических процессах, общественном сознании. На первый план выделены основные нюансы событий, происходящих в мире и республике, принесшие в азербайджанскую поэзию новые идеи, темы и содержание.

Постепенно в поэзии наблюдается отражение борьбы за сохранение и утверждение национального духа. Несмотря на это, можно говорить о невиданном резком ослаблении в поэзии оптимистической струи, усилении пессимистического настроя. В общественно-эстетической позиции всех поэтов можно отчётливо наблюдать серьёзные инновации.



**Ключевые слова:** национальное мышление, переходный период, свобода, гармония, деградация, Карабах, война